# Xüsusi təhsil konsepsiyası, tarixi və yanaşmalar

**Nərmin Zari**
*Xəzər Universiteti*
**E-mail:** Nermin.zari@gmail.com

**Rəyçilər:** prof. P.B. Əliyev,
prof. E.N. Səmədli

**Açar sözlər:** təhsil, sağlamlıq imkanları məhdud, inklüziv təhsil
**Ключевые слова:** образование, ограниченные физические возможности, инклюзивное образование
**Key words:** education, disabilities, inclusive education

Tarix boyu hər zaman sağlamlıq imkanları məhdud şəxslər olmuşdur və sağlamlıq imkanları məhdud uşaqların və gənclərin tarix boyu cəmiyyətdə ədalətsiz bərabərsizliyə məruz qalması danılmaz faktdır. Bu ədalətsizlik özünü bir neçə sahədə büruzə vermişdir. Lakin onların təhsil alması heç də hər zaman ümdə məsələlərdən olmamışdır. 18-ci əsrin sonlarına doğru, Amerikan və Fransız inqilablarından sonra, tarixdə ilk dəfə bəzi duyğu orqanlarında məhdudiyyəti olan şagirdlər üçün (əsasən görmə və eşitmə məhdudiyyətli olanlara) xüsusi və effektiv üsullar hazırlandı. 1829-cu ildə Samuel Gridli Hov ilk dəfə görmə qabiliyyəti olmayan şagirdlər üçün internat məktəbi yaratdı və bu tipli məktəblərdə kurikulum ənənəvi oxuma, yazma, riyaziyyat fənləri şagirdlərin maraq və qabiliyyətlərinə əsasən formalaşdırıldı.

19-cu əsrdə xüsusi qayğıya ehtiyacı olan şəxslər çox zaman Tanrının lənəti, "yaratıq", "debil", və s. adlandırılırdı. Bunun ən böyük səbəblərinə Avropa cəmiyyətinin batil inanc və dini fanatikliyi aid edilirdi. Zaman ötdükcə cəmiyyət bu cür şəxslərin həyatında törəyən qüsurların yalnız şəxsin özündən deyil, həm də ətraf mühitdən qaynaqlandığını dərk etməyə başladı. Yəni, zamanla "qüsurlu insan" - "şikəst" tendensiyası, "qüsurlu mühit" - "məhdudiyyətli şəxs" nəzəriyyəsi ilə əvəz olunmağa başladı. Məsələn, tədricən əqli geriliyi olan insanların diaqnozları onları alçaltmaq, lağa qoymaq məqsədilə istifadə olunmurdu. Buna görə də pedaqoji vəsaitlər hazırlanarkən şəxslərin qüsurlarına üstünlük vermək deyil, bu cür məhdudiyyətlərin tələblərinə ən yaxşı şəkildə cavab verəcək materialların hazırlanması tövsiyə edilir. Həmin vəsaitlər əsasında xüsusi təhsilin təşkil olunması bilavasitə xüsusi təhsilin yaradıcılarının müəyyən etdikləri standartlara əsaslanır.

Xüsusi təhsilin ilk yaradıcıları əsas etibarı ilə Avropa həkimləridir. Əksər tarixçilər xüsusi təhsilin yaranmasını ixtisası eşitmə qabiliyyəti tamamilə olmayan və ya zəif eşidən uşaqlar olan Fransız təbib Jean-Marc-Gaspard İtardla (1774-1838) bağlayırlar. 19-cu əsrin əvvəllərində, gənc təbib Fransada meşələrdən birində tapdığı canavar sürüsünə qoşulmuş bəzən "vəhşi uşaq" və ya "Aveyrondakı vəhşi uşaq" adlandırılan 12 yaşlı bir oğlana təhsil verməyə başlayır. O zaman İtardın müəllimi əqli inkişafı ləngiyən uşaqların müalicəsinin mümkün olduğu ideyasının müdafiəçisi Fransız təbib Flip Pinel (1745-1826) həmin uşağa əqli gerilik diaqnozunu qoymuş və tələbəsinə, adını Viktor qoyduğu "vəhşi uşaq" üçün göstərdiyi bütün cəhdlərin uğursuz olacağını, və həmin "əlacsız axmaq" uşaqdan ümidini üzməsini məsləhət bilmişdi. Lakin, bütün tənqidlərə baxmayaraq İtard işini yarım qoymadı və çox böyük səbir və əzmlə davam etdirdiyi 5 illik təlim prosesinin nəticəsində Viktorun

hərəkətlərini çox yüksək dərəcədə dəyişdirməyi bacardı. 5 ilin sonunda Viktor rəqəmləri, rəngləri, əşyaların formasını və bir sıra bacarıqları öyrənsə də şifahi nitqini inkişaf etdirə bilmir. Həmin müstəsna xidmətinə görə ona "xüsusi təhsilin atası" adını verdilər.

J.İtardın tələbəsi Eduard Sequin müəlliminin ardınca xüsusi təhsil sahəsində müstəsna addımlar atmışdır. O düşünürdü ki, təlim prosesində ilk öncə sensor-motor hərəkətləri işə salan tapşırıqlardan istifadə olunmalıdır. Sequin uşaqlarda sərbəstlik və özünəinam hissinin aşılanması üçün təlim proqramında fiziki və zehni əmək tələb edən çalışmalara xüsusi yer verirdi. Eyni zamanda o düşünürdü ki, uşaqlar nə qədər erkən yaşlarında təhsilə cəlb olunsalar təlimin nəticəsi bir o qədər uğurlu olar. Məhz onun bu fikri Maria Montesorrinin nəzəriyyəsinə bünövrə olmuşdur.

Bildiyimiz kimi, Maria Montesorri öz nəzəriyyələri ilə pedaqogika sahəsində dərin izlər qoymuşdur. O da öz sələfləri kimi düşünürdü ki, təlim prosesində idrakın təlimindən öncə duyğuların təlimi ilə məşğul olmaq lazımdır. Montesorri öz nəzəriyyələrini açdığı uşaq bağçalarında həyata keçirdikdən sonra şöhrət qazanmış və onun tövhələri "Montesorri metodu" adı altında bütün dünyada tətbiq olunmağa başlamışdır. ("Azərbaycanda inklüziv təhsilin vəziyyəti: problemlər və perspektivlər", Lalə İmanova, 2016)

Avropalı təbiblərin ardınca Birləşmiş Ştatlarda da sağlamlıq imkanları məhdud uşaqların təhsilinin təmin olunması prioritet məsələlərdən biri oldu. Hardvard Tibb Məktəbinin məzunu və pedaqoq Samuel Gridley Hov Perkins (1801-1876) eşitmə məhdudiyyətli şagirdlər üçün qurulan məktəbin banilərindən biridir. Eyni zamanda o əqli geriliyi olan şagirdlərin təhsil alması üçün ilk eksperimental məktəbin yaradılmasının arxasındakı ən güclü qüvvə olmuşdu. Digər tərəfdən nazir Tomas Hopkins Gallaudet (1878-1851) eşitmə qabiliyyəti olmayan bir qızın təhsilini öz üzərinə götürmüş və bunun üçün bütün Avropanı gəzib təcrübə və elm əldə etmişdir. Eləcə də o Amerikada eşitmə qabiliyyəti olmayan şəxslər üçün yaradılmış hal-hazırda "Eşitmə Məhdudiyyətli Şəxslər üçün Amerikan Məktəbi" adlanan ilk internat məktəbin banisidir (1817).

İtardın və onun davamçılarının təcrübələrinin indiki xüsusi təhsilin formalaşmasına verdiyi ən vacib tövhələr aşağıdakılardır:

- Fərdi təlimat-təcrübələr əvvəlcədən hazırlanmış təhsil proqramı yerinə fərdin şəxsi bacarıq və qabiliyyətlərinin nəzərə alındığı individual proqramın daha effektiv olduğunu sübut edir.
- Diqqətlicə sıralanmış pedaqoji öhdəliklər - Belə ki, şagirdə əvvəlcə rahatlıqla tamamlaya biləcəyi tapşırıqlar, sonra isə tədricən daha mürəkkəb tapşırıqlar verilməlidir.
- Uşağın hisslərinin oyadılması və stimullaşdırılmasına vurğu - Beləliklə, sağlamlıq imkanları məhdud şagird ətraf mühitə daha çox agah ola bilər və təhsil prosesi də bir o qədər uğurlu olar.
- Şagirdin öyrənmə mühitinin yaradılması - Düzgün təşkil edilmiş mühit bilavasitə şagirdin öyrənməsinə müsbət təsir göstərə bilər. Belə ki, dərs otaqları fikir yayındıra biləcək obyektlərdən çox, informativ şəkillər, fiqurlar və rənglərlə dizayn edilsə bu öyrənməyə dəstək olar.
- Düzgün icra edilmiş tapşırığa dərhal mükafat verilməsi - bu yolla şagird hansı hərəkətinə və ya cavabına görə mükafatlandırıldığını daha aydın qavraya bilər. Verilmiş mükafatlar gələcəkdə arzu olunan davranışların fərddə formalaşdırılmasını möhkəmləndirir.
- Funksional bacarıqlarda repetitorluq - Gündəlik həyatda lazım olan davranışların şagirdlərə öyrədilməsi onların maksimum dərəcədə azad və məhsuldar həyat keçirə bilməklərini təmin edir.

- Hər bir şagirdin ən yüksək səviyyədə təhsil ala biləcəyinə inam - çünki təhsil hər bir şəxs üçündür. (Exceptional Learners: An Introduction to Special Education, Daniel P. Hallahan, James M. Kauffman, 2019)

Bu proseslərin davamı inkluziya ilə yekunlaşdı. Inkluziya özündə, sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətdə sadəcə fiziki şəkildə yerləşmələrini deyil, onların təhsilə, iş mühitinə və ümumilikdə cəmiyyət arasında qəbul olunmaqlarını təmin edirdi.

1960-1970-ci illərdə xüsusi ehtiyaclı şəxslərin valideynləri və mühafizəçiləri məhkəmələrdən istifadə edərək bərabər təhsil hüquqlarını təmin etməyə çalışdı. Bu cəhdlər bir müddət sonra öz bəhrəsini verməyə və nəticədə sağlamlıq imkanları məhdud şəxslərin hüquqlarını bərpa edən qanunlar qüvvəyə minməyə başladı.

Məhdud imkanları olan uşaqların təlim və təhsil prosesinin tarixi dövrü bir neçə yanaşmanı özündə cəmləşdirir:

- 1800-cü illər- İnstitutlaşma
- 1900-1950-ci illər- Seqreqasiya
- 1950- 1960-cı illər- Kateqoriyalaşdırma
- 1970-ci illər- İnteqrasiya
- 1980-cı illər- Meynstriminq
- 1990-cı illər- İnkluziya

1.2.1. İnstitutlaşma

Xüsusi təhsil sahəsində baş vermiş inqilabi dəyişikliklərdən əvvəlki dövrlərdə sağlamlıq imkanları məhdud uşaqlar üçün cəmiyyət tərəfindən təklif edilən ən yaxşı şərait onları uyğun gəlmədikləri həyatdan və cəmiyyətdən qorumaq məqsədilə sığınacaqlarda saxlamaq idi. Həmin bu cür institutlar internat məktəbləri və qayğı mərkəzləri şəklində gözə çarpan fiziki məhdudiyyəti olan şəxslərə xidmət göstərirdi. Lakin Amerika və Fransadakı demokratik cərəyanlar bu sahəyə də öz təsirini göstərdi. Belə ki, siyasətçilər və elm xadimləri həmin “yarımçıq”, “mükəmməl olmayan” şəxslərin belə təhsil vasitəsilə cəmiyyətə yararlı və azad bir fərd halına gətirilə biləcəyinə inanmağa başladılar.

20-ci əsrdə xüsusi təhsil sahəsində bağlı atılmış ən vacib addımlardan biri normallaşdırma olmuşdur. Normallaşdırma cəmiyyətin sağlamlıq imkanları məhdud şəxslər ətrafında hördükləri divarların yıxılması və onları cəmiyyətdə normal həyatla təmin etməyi hədəfləyən bir fəlsəfədir. Bu addımla xüsusi qayğıya ehtiyacı olan şəxsləri cəmiyyətdən təcrid etmək məqsədilə inşa edilmiş xüsusi müəssisələrin ləğv edilməsi və belə şagirdlərin ümumtəhsil məktəblərinə cəlb olunması prosesinə başlanıldı.

1.2.2. Seqreqasiya

Yuxarıda qeyd etdiyim kimi, normallaşdırma hərəkatı xüsusi qayğıya ehtiyacı olan şagirdlərin təcridxanalardan çıxardılıb cəmiyyətə daxil edilməsini təmin etdi. Nəticədə, xüsusi psixofiziki inkişafa məxsus şəxslərin dövlət səviyyəsində təhsil almaq hüquqları barəsində işlər görülməyə başlanıldı. Lakin hələ də, onların cəmiyyətə tam cəlb olunmasından söhbət belə gedə bilməzdi. 20-ci əsrin ortalarında atılmış digər böyük addım, de-institutlaşma adlanır. O vaxta qədər, əqli inkişafı ləngiyən şəxslər valideynləri tərəfindən təcridxanalarda yaşamağa məcbur edilirdi. De-institutlaşma nəticəsində xüsusi məktəblərin tikintisinə və internat məktəblərin şəraitinin yaxşılaşdırılmasına başlanıldı. SİM uşaqların təhsili ya həmin məktəblərdə ya da evdə təşkil olunurdu. SİM şagirdlərin ətrafına hörülən divarların dağılması hələ də onları tam azad etmirdi, onlar hələ də cəmiyyətdə seqreqasiyaya məruz qalırdılar.

1.2.3. Kateqoriyalaşdırma

Zaman keçdikcə görünüşü tipik şagirddən fərqlənməyən, əqli məhdudiyyəti olan, autizm

sindromlu, emosional və iradi sahədə pozuntuları olan şagirdlər üçün xüsusi siniflərin təşkil edilməsi və görmə, eşitmə və digər fiziki məhdudiyyətli şəxslərin hələ də xüsusi müəssisələrdə təhsil alması, atipik şagirdlər arasında kateqoriyalaşma ilə nəticələndi.

1960 və 1970-ci illərdə həmin şəxslərin təcridxanalardan çıxarılıb cəmiyyətə yaxınlaşdırmaq üçün ard-arda bir neçə islahatlar həyata keçirildi. Nəticədə, xüsusi qayğıya ehtiyacı olan uşaqlar ailələri tərəfindən yetişdirilməyə və bu cür müəssisələrə artıq ehtiyac duyulmamağa başlanıldı.

1.2.4. İnteqrasiya

İnteqrasiya məktəbdə heç bir dəyişiklik olmadan məktəbi SİM uşaqların imkanlarına uyğunlaşdırmadan xüsusi təhsil proqramı əsasında xüsusi siniflərin təşkilini nəzərdə tutur. Bu zaman tipik və atipik şagirdlərin eyni sinifdə təhsil alması o qədər vacib hesab edilmir. Azərbaycanda "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanunun 12-ci maddəsinin tələblərinə əsasən, sağlamlıq imkanları məhdud uşaqların ümumi təhsil müəssisələrində təhsil almalarının təmin etmək üçün "İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili qaydaları" təsdiq olunmuşdur. Həmin qaydalara əsasən, inteqrasiyalı təhsil sağlamlıq imkanları məhdud uşaqların ümumi təhsil müəssisələrində xüsusi təhsil proqramları ilə xüsusi siniflərdə təhsilinin təşkili ilə bağlı məsələləri əhatə edir.

1.2.5. Meynstriminq (Hakim tendensiyaya çevrilmə)

19-cu və 20-ci əsrlərə qədər sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətdən təcrid olunması heç də təəccüblü bir hal deyildi. Həmin zamanlarda inanılırdı ki, institutlarda yaşamağa məhkum edilmiş şəxslər yalnız o halda cəmiyyətə inteqrasiya edilə bilər ki, onlar "həyati bacarıqlar" əldə etmiş olsun. Amma bu fikir çox absurd səslənir. Belə ki, heç vaxt ərzaq mağazasına getməyən bir şəxs alış-veriş etmədən bunu necə öyrənə bilər?

Ötən əsrin sonlarında sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyasına başlanıldı. Prezident Ford tərəfindən imzalanmış 1975-ci ildə "Bütün Əlil Şəxslərin Təhsil Aktı" SİM şagirdlərin meynstrim siniflərə cəlb olunmasına şərait yaratdı. Meynstriminq sadəcə bir proses kimi, xüsusi psixofiziki inkişafa sahib uşaqların ümumtəhsil məktəblərə birgə təhsil almaq məqsədilə deil, yalnız həmyaşıdları ilə bayramlarda, müxtəlif proqramlarda ünsiyyətdə olmaq, yəni sosial dairəni genişləndirmək məqsədilə, sadəcə ümumtəhsil siniflərinə yerləşdirilməsi idi. Bəzi mənbələrdə bu proses "uşağı dənizə atıb onun batmağını və ya üzüb çıxmağını gözləmək" kimi təsvir olunur. Amma bu prosesin institutlaşmadan fərdi olmadığı aydın olmuşdur. Nəticəsi uğurlu alınmayan və xüsusi təhsil ehtiyaclarını tam anlamıyla ödəyə bilməyən meynstriminq inklüziya ilə əvəz olunmuşdur.

1.2.6. İnkluziya

İnkluziya - bütün vətəndaşların, ilk növbədə əlilliyi olan bütün insanların cəmiyyətdə iştirak səviyyəsinin artırılması prosesidir. İnklüziyanın əsas hədəfi cəmiyyətin əlilliyi olan şəxslərə (ƏoŞ) münasibətinin dəyişdirilməsi və təhsil sahəsi də daxil olmaqla cəmiyyətdə digər insanlarla bərabər imkanların formalaşdırılması, onların hüquqlarının bərpa olunmasını təmin etməkdir. İnklüziv təhsil isə adından göründüyü kimi sağlamlıq imkanları məhdud şəxslərin (SİM) təhsil prosesinə cəlb edilməsini təmin edir.

İnklüziv təhsil uşaqyönümlü metodologiyanı inkişaf etdirməyi hədəf götürür və bütün uşaqların - fərdlərin təhsildə müxtəlif ehtiyaclara malik olduqlarını qəbul edir. İnklüziv təhsilin əsasında aşağıdakı istiqamətləri əsas götürən ideologiya durur.

– Bütün insanlara eyni münasibəti təmin edərək hər cür diskriminasiyadan uzaq durmaq;

– Xüsusi təhsil ehtiyacları olan uşaqlar üçün ümumtəhsil müəssisələrində şərait yaratmaq.

İnklüziv təhsil məktəbəqədər, orta, peşə və ali təhsil mərhələlərində tətbiq olunmaqla, SİM şagirdlərin davamlı təhsilinin inkişafının təmin olunmasına xidmət edir. İnklüziv siniflərin əsas prinsipləri şagirdlər arasında aşağıdakı dəyərlərin formalaşdırılmasıdır:

1. İnsanın dəyəri onun qabiliyyət və nailiyyətlərdən asılı deyildir;
2. Hər bir kəs hiss etmək və düşünmək qabiliyyətinə malikdir;
3. Hər kəs ünsiyyət hüququna malikdir və o dinlənilməlidir;
4. Bütün insanlar bir-birinə lazımdır;
5. Həqiqi təhsil yalnız reaı münasibətlərin kontekstində mövcud ola bilər;
6. Bütün insanlara öz həmyaşıdlarının dəstək və dostluğu lazımdır;
7. Bütün şagirdlərin inkişafı onların bilik və bacarıqlarından aslıdır.
8. İnsanların müxtəlifliyi həyatın bütün sahələrini inkişaf etdirir.

İnklüziv təhsil şagirdlərdə dostluq, paylaşma, müxtəlif tərkibli qruplarla işləmə qabiliyyəti, fərqli şəxslərlə ünsiyyət və başqa real həyat bacarıqları formalaşdırır. Bu mövzuda aparılmış bəzi müşahidələrin nəticəsi göstərir ki, inklüziv təhsilə cəlb olunmuş şagirdlər gələcək həyatlarında, digərlərinə nisbətən daha humanist, sosial və daha çox birgə fəaliyyətə can atmış olurlar.

**Məqalənin aktuallığı.** Son dövrlərdə xüsusi psixofiziki inkişafa malik şəxslərin təhsilinin inkişafı ilə bağlı Azərbaycanda və dünyada bir çox layihələr həyata keçirilmişdir. Bu layihələrin həyata keçirilməsində qədim dövrlərdə həyata keçirilən araşdırmaların nəticələrindən istifadə oluna bilər.

**Məqalənin elmi yeniliyi.** Xüsusi təhsilin tarixi və keçdiyi inkişaf mərhələləri araşdırılır. Bundan əlavə, qədim tədqiqatçıların müasir xüsusi təhsil elminə verdiyi töfhələr izah edilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə təqdim olunan fikirlərdən xüsusi, internat və inklüziv tipli məktəblərin müəllimləri, pedaqoqlar, sosial işçilər və digər mütəxəssislər, eləcə də sağlamlıq imkanları məhdud şəxslərin valideynləri yararlana bilər.

## Ədəbiyyat

1. L. İmanova. Azərbaycanda inklüziv təhsilin vəziyyəti: problemlər və perspektivlər. Bakı, 2016.
2. James M. Kauffman. Exceptional Learners: An Introduction to Special Education, Daniel P. Hallahan, 2019.
3. Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Azərbaycan Respublikasının Qanunu, 12-ci maddə.
4. Xüsusi psixoinkişafa malik uşaqların tərbiyə və təlimi. Bakı: "Tuncay 12" MMC, 2016.

**Н. Зари**

## Специальная образовательная концепция, история и подходы

## Резюме

В 70-ые годы прошлого века начался процесс завершения дискриминации людей с ограниченными возможностями, который длился на протяжении всего исторического периода. В этой статье предоставляется информация о развитии ступеней адаптации

людей с особенностями психофизического развития в образовательную и общественную жизнь. Этот процесс начался с момента проведения Гаспардом Итарди первого опыта, связанного с образовательной системой людей с ограниченными возможностями, которое нашло отражение в соответствующей статье об инклюзивной модели обучения.

**N. Zari**

## Special Education, its history and models

### Summary

The discrimination against people with disabilities in all areas throughout the history has started to end in the 70s of the last century. This article provides information about the developmental stage in education and participation in society of individuals with special psychophysical characteristics. A long process, starting with the first experience of Gaspard Itard related the education of a child with disability ending with inclusive education was examined in this research.

**Redaksiyaya daxil olub:** 25.07.2019